## 2014-CÜ İL ÜÇÜN “UNİVERSİTET QRANTI” MÜSABİQƏSİ (EİF/MQM/Universitet-2014-5(20)) ÇƏRÇİVƏSİNDƏ YERİNƏ YETİRİLMİŞ LAYİHƏ ÜZRƏ NƏŞRLƏR VƏ ƏSAS ELMİ NƏTİCƏLƏR

Layihənin məqsədi Azərbaycanda sürətli iqtisadi inkişafın davamlılığının sosial təminedicilərinin adekvatlığının qiymətləndirilməsi və inkişafın sosial keyfiyyət mərhələsinə keçid mexanizminin elmi bazasının formalaşdırılması əsasında əməli sosial siyasət üçün tövsiyyələrin hazırlanması kimi müəyyənləşdirilmişdir.

Layihə çərçivəsində aparılmış araşdırmalarla, çağdaş Azərbaycan iqtisadiyyatının sosial yönümlüyü, onun sosial strukturlaşması səviyyəsinin təsbit edilməsi, davamlı inkişafın üç aspektli konsepsiyası, yaşıl iqtisadiyyat və çoxfaktorlu yoxsulluq səviyyəsinin qiymətləndirilməsi kimi yanaşmalar vasitəsi ilə təmin edilmiş və müasir çağırışlara əsasən davamlı inkişafın dominantları qiymətləndirilmişdir.

Aparılmış tədqiqatların ümumiləşdirilmiş nəticəsi olaraq Azərbaycanda sosial keyfiyyət mərhələsinə keçidin vəzifələri, o cümlədən, cəmiyyətin sosial fəallığının yüksəldilməsi istiqamətləri, iqtisadi artım və sosial inkişafın adekvatlığı problemlərinin həlli yolları, davamlı inkişaf kontekstində həyat səviyyəsi meyarları və çoxölçülü yoxsulluq səviyyəsinin aşağı salınması vəzifələri müəyyənləşdirilmiş; həmçinin Azərbaycanda davamlı inkişafın sosial çağırışları kontekstində yeni sosial siyasət strategiyası və sosial siyasətin yeni maliyyələşdirilmə modeli haqqında əsaslandırılmış tövsiyyələr formalaşdırılmışdır.

| № | Nəşr haqqında məlumat (Məqalələr) | Tam mətn |
|---|---|---|
| 1 | **Məqalənin adı:** Azərbaycan Respublikasının sosial təminat sistemi: davamlı inkişaf kontekstində<br>**Müəlliflərin S.A.A:** Hüseynov R.<br>**Nəşrin adı:** ADİU Elmi Xəbərləri, 2016, Cild 4, s.44-63<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | PDF Adobe |
| 2 | **Məqalənin adı:** Azərbaycan iqtisadiyyatında davamlı inkişafın sosial çağırışları və sosial keyfiyyət modelinin formalaşdırılması vəzifələri<br>**Müəlliflərin S.A.A:** Həsənov R.<br>**Nəşrin adı:** Statistika xəbərləri, 2016, №4<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | (-)<br>PDF Adobe |
| 3 | **Məqalənin adı:** Azərbaycan Respublikasının sosial təminat sistemi: davamlı inkişaf kontekstində (təqaüd təminatı və sosial xidmət sistemi timsalında)<br>**Müəlliflərin S.A.A:** Hüseynov R.<br>**Nəşrin adı:** ADİU Elmi Xəbərləri, 2016, Cild 5, s.58-69<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | (-)<br>PDF Adobe |